

**Ədəbiyyat tariximizdə hekayə, povest və romanları ilə özünəməxsus layiqli yer tutan görkəmli sənətkar, unudulmaz yazıçı və pedoqoq-alim Mir Cəlal Paşayev ədəbi aləmdə atdığı ilk addımlardan sənətin şöhrət zirvəsinə qədər keçdiyi çətin və şərəfli ömrünün 50 ili ərzində zəngin ədəbi irs yaratmışdır. Ədibin bioqrafiyasından götürdüyümüz rəqəmlərin məna tutumuna diqqət yetirək.**

# Nur çeşməsi

**Mir Cəlal Paşayev 26 aprel 1908-ci ildə Cənubi Azərbaycanda - Təbrizin yaxınlığındakı Əndəbil kəndində anadan olmuşdur. Taleyin qəfil rüzgarları hələ uşaq ikən əlindən çox şeyini almışdır. Demək olar ki, çox erkən yaşlarından doğulduğu ana torpağı, valideynlərini itirmişdir.**

Buna baxmayaraq həyatın ağrı-acılarına mərdliklə sinə gərməyi bacarmışdır. Şimali Azərbaycanda ilk yaşadığı şəhər qədim Gəncə, ilk əmək fəaliyyətinə başladığı rayon Gədəbəy, ömrünün son mənzilinədək geniş ədəbi və elmi fəaliyyət göstərdiyi ünvan Bakı olmuşdur.

Mir Cəlalı yaxından tanıyanlar həmişə bir fikri çox vurğulayırlar ki, o, hər şeydən əvvəl, son dərəcə işıqlı şəxsiyyət idi. Hansı məziyyətlərindən danışmaq istəsən, insanın qəlbinə xoş hisslər, emosiyalar daxil olur.

Mənəviyyatındakı saflıq, təmizlik, halallıq, toxluq həyatda, elmdə, yaradıcılıqda, pedaqoji fəaliyyətdə və insanlara münasibətdə həmişə Mir Cəlal müəllimin ən etibarlı yol yoldaşı idi.

Həyat həqiqətinə sadiqlik ədibin həqiqi vətəndaşlıq amalına çevrilmişdi. Tənqidçilər yazıçının yaradıcılıq keyfiyyətlərini hansı istiqamətdən təhlilə çəkməklərindən asılı olmayaraq həmişə bir fikirdə köklənirdilər: "Mir Cəlal gözəl hekayələr ustadı idi".

Onun hekayələrində həyatın hər iki qütbü həmişə özünü göstərirdi. Müəllifin "Ərik ağacı", "Şapalaq", "Xarici naxoşluq", "Plovdan sonra", "İclas qurusu", "Əmzik", "Yamanlığa yaxşılıq", "Ad günü", "Dərsini yaz", "Təzə toyun nəzakət qaydaları" adlı hekayələrində toxunulan məsələlər bu gündə aktuallığını itirmir.

Onun sadə və şirin təhkiyəsi nağıllarımızdan gələn xalq danışıq dilindən bəhrələndiyini göstərir. Bu səbəbdən də Mir Cəlalın hekayələri həmişə maraqla qarşılanır.

Gözəl və nəcib duyğuların, düşüncələrin sahibi olan yazıçı öz əsərlərində insanı mənəvi cəhətdən saflaşdıran, zənginləşdirən problemlərlə bağlı elə mövzulara müraciət edib ki, onun yaradıcılığında tarixin, dövrün, quruluşun bütün rəngləri öz əks-sədasını tapırdı.

Ömrünün sonunadək müxtəlif mövzularda kiçik və lokonik hekayələr yazan Mir Cəlal Azərbaycan ədəbiyyatında roman janrının inkişafında da özünəməxsus xidmətlər göstərimişdir.

"Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır", "Açıq kitab", "Yaşıdlarım", "Təzə səhər" adlı romanlarında hekayələrinə məxsus məziyyətlər öz əksini tapıb. Yazıçının tədqiqatçıları bu fikirdədirlər ki, o, öz romanlarında tarixi hadisələri realist boyalar, tipik obrazlar və canlı həyati lövhələr vasitəsilə verməyə çalışıb.

Mir Cəlalın romanlarında xalqımızın ötən əsrdəki mübarizələrlə dolu həyatının bütöv mənzərəsi var. Mir Cəlal filologiya elmləri doktoru, professor idi. O, görkəmli ədəbiyyatşünas-alim kimi də fəaliyyət göstərmişdir.

Klassik Azərbaycan ədəbiyyatının mükəmməl və bacarıqlı tədqiqatçılarından biri idi. Bədii əsərlərində olduğu kimi, elmi əsərlərində də Mir Cəlal aydın məqsədli, milli təfəkkürlü tədqiqatçı kimi diqqət çəkirdi.

Mir Cəlal, həqiqətən, ədib kimi də, alim kimi də həyatın enişli-yoxuşlu yollarını büdrəmədən məqsəd aydınlığı ilə keçməyi bacarıb. Bu aydılıqdan çox talelərə işıq düşüb.

Ədəbiyyatşünas Pənah Xəlilov yazmışdır: "Alim Mir Cəlal Paşayevin elmi əsərlərinin dili, üslubu öz qələm yoldaşlarının heç birinin dilinə, üslubuna oxşamır. Onun əsərlərində nə publisistika yar, nə də qəliblənmiş elmi terminli tədqiqat dili. O, elmi əsərlərini yazıçı Mir Cəlalın qələmindəki yığcamlıq və şirinliklə, amma dərin və axıcı elmi mühakimə tutumu olan dillə yazardı. Bu yazı indi də təkraredilməz örnəkdir".

1948-ci ildə Azərbaycan Dövlət Universitetinin professoru seçilən Mir Cəlal 1961-ci ildən ömrünün sonuna kimi bu ali məktəbin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında çalışmış, hər kəsin ürəyində möhtəşəm müəllim abidəsi yaratmışdı. Bəlkə də universitet həyatında onun qədər qayğıkeş, yumşaq təbiətli müəllim olmamışdı.

Müəllimlərimdən və onu yaxından tanıyanlardan eşitmişəm ki, kitablarının ilk nüsxəsini payladığı oxucular elə öz tələbələri olardı. Ömründə bir dəfə də jurnalı yoxlamazdı. Amma hər kəsin nə işlə məşğul olduğunu dəqiq bilərdi.

Hamının maddi vəziyyəti ilə maraqlanardı. Qəlbi insanlara qarşı məhəbbət və mərhəmətlə dolu idi, tələbəyə heç vaxt kafı yazmazdı. Çünki o, təqaüddən düşə bilərdi.

1998-ci ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Mir Cəlalın anadan olmasının 90 illiyi dövlət səviyyəsində qeyd edildi. Bu münasibətlə onun həmkarlarının, tələbələrinin, doğmalarının qələmə aldıqları yazılardan ibarət xatirələr kitabı çapdan çıxdı.

Yazıçının qızı Ədibə xanımın oxuculara bağışladığı həmin kitabı vərəqlədikcə müxtəlif xatirələrdən Mir Cəlal müəllimin işıqlı obrazı boylanır.

Unudulmaz alimin vaxtilə professor Firudin Hüseynovla birgə yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" adlı kitabı 2000-ci ildə İstanbulda çap edilmişdir. Türkiyəli oxucular bu kitab vasitəsilə Azərbaycan ədəbiyyatının tarixini mükəmməl öyrənmək imkanı qazanıblar.

Fərəhli haldır ki, YUNESKO- nun xətti ilə görkəmli Azərbaycan yazıçısının 100 illik yubileyi geniş miqyasda qeyd olundu. Bu münasibətlə məmləkətin hər bölgəsində Mir Cəlalla bağlı müxtəlif yubiley tədbirləri keçirildi. Vaxtilə yaşayıb işlədiyi Gəncədə, Gədəbəydə, Bakıda yazıçının yaradıcılığını əks etdirən muzeylər açıldı, guşələr yaradıldı.

Məhəbbəti qəlblərdə yaşayan unudulmaz yazıçı və pedaqoq Mir Cəlal Paşayev apreldə dünyaya gəlmişdi. Bir payız günündə - sentyabrın 28-də dünyaya və canından artıq sevdiyi doğmalarına "əlvida" dedi.



**Vaxtilə ürəklərdə yandırdığı çıraq yenə də eyni şövqlə alovlanmaqdadır. Həqiqətən də, el məhəbbəti qazanan insanlar heç vaxt unudulmurlar...**

● **Aybəniz KƏLBİYEVA,**
*BDU-nun tələbəsi*